N17 (1116) 30 aprel - 6 may 2020-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# S.Çakrabarti: “Sizin ölkə dünyada ilin ilk rübündə iqtisadi artıma nail olmuş azsaylı ölkələrdəndir, bəlkə də yeganə ölkəsiniz”

**Bu sözləri Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə keçirdiyi videokonfransda deyib.**

**O, bildirib:** - Bu, olduqca qeyri-adi bir görüş tərzidir. Biz Sizinlə istər Bakı, istərsə də Davosda dəfələrlə görüşmüşük. Biz qəribə və qeyri-adi bir dönəmdə yaşayırıq. Əvvəlcə Azərbaycandakı vəziyyət və həyata keçirilən tədbirlər haqqında Sizdən məlumat almaq istərdik. Daha sonra isə mən və heyətim bu böhrandan ən qısa zamanda çıxmaq üçün Azərbaycana hansı dəstəyin verilə biləcəyi ilə bağlı məlumat təqdim edəcəyik.

**Prezident İlham Əliyev görüşə görə Suma Çakrabartiyə və Avropa Yenidənqurma və İnkişaf Bankının yüksək rütbəli nümayəndələrinə təşəkkürünü bildirərək, deyib:**

- Biz ilk gündən real vəziyyətə əsaslanan tədbirlər görməyə başladıq. Azərbaycana bu virus qonşuluqdan gəldi və bunun qarşısını almaq üçün biz müvafiq addımlar atdıq və qonşu dövlətlərlə razılıq və birgə qərar əsasında sərhədlərimizi bağladıq. Hesab edirəm ki, biz bu qərarı vaxtında və digər ölkələrin bənzər qərarlarından tez verdik və beləliklə, zaman udmuş olduq.

Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə daimi təmasdayıq və bu təmaslar davam edir. ÜST bəyanat yayaraq Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunə kimi göstərmişdir. Biz 120 mindən artıq test həyata keçirmişik və aparılan testlərin adambaşına düşən sayına görə aparıcı yerlərdəyik.

İqtisadiyyatımıza təsirə gəldikdə, əlbəttə, təsir mənfi olacaqdır. Bizim ilin əvvəlində müsbət perspektivlərimiz var idi. Hələ də ilin ilk rübünə nəzərə salsaq, artım 1 faizdir, qeyri-neft sektorunda artım 3 faiz təşkil edir, qeyri-enerji sahəsində artım isə 23 faizdir.

Koronavirus nəticəsində mənfi təsirə məruz qalmış özəl sektorun müvafiq sahələrinə ciddi dəstək paketi təqdim edilmişdir. Xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənilib. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edilib.

Təbii ki, bu, bizim üçün böyük xərcdir. Vergi güzəştləri də nəzərə alınsa, bu gün bu rəqəm 3,5 milyard manat və ya 2 milyard dollardan çoxdur. Bu, bizim büdcəmiz üçün böyük yükdür, çünki neftin qiymətinin kəskin azalması bizim valyuta ehtiyatlarımıza mənfi təsir göstərəcəkdir. Ancaq bizim üçün bu dövr xərclərimizi artırmalı və yoxsul vətəndaşlarımıza və sahibkarlara yardım etməli olduğumuz dövrdür. Eyni zamanda, bu il biz ödənişli ictimai iş yerlərinin sayını da 2 dəfə artırmışıq. Burada minimal əməkhaqqı verilir və adətən bu, dövlət sektoruna aid olan iş yerləridir. Bu il belə iş yerlərinin sayı 90 min olacaqdır. Biz sosial yardım alan vətəndaşların da sayını artırmışıq. Hər bir belə ailəyə ayda 222 manat ödənilir və onların sayı 80 minə çatmışdır. Bununla yanaşı, 12 min insan üçün, - burada da 70 faiz artım var,- özünüməşğulluq imkanları yaradılıb.



Suma Çakrabarti: Sizinlə 2012-ci ildə baş tutmuş ilk söhbətimi xatırlayıram. Azərbaycanda yoxsulluğun rekord dərəcədə aşağı salınmasına nail olunduğunu qeyd etdik və bir çox insan bundan bəlkə də xəbərsizdir, ancaq bu, dünyada ən yüksək templərdən biri idi.

**Burada Mərkəzi Bankla 50 milyon dollar məbləğində “Swap” razılaşmasının başa çatdırılmasına görə dərin təşəkkürümü bildirirəm.** Bu, bizə özəl sektor müştərilərimizin yerli valyutada maliyyələşdirilməsi üçün vacibdir. Buraya korporativ müştərilərimiz, orta və kiçik sahibkarlıq subyektləri və maliyyə institutları daxildir. Biz yaxın həftələrdə 5 müxtəlif tranzaksiya üzrə 20 milyon avroluq ödənişlər edəcəyik.

Ötən illərlə müqayisədə keçən il Azərbaycana sərmayə həcmimiz aşağı səviyyədə olub, çünki biz neft-qaz sahəsinə yatırım etmədik və diqqəti orta və kiçik sahibkarlıq sahəsinə yönəltdik. Biz münbit şərait olduqda bu il Azərbaycana 250 milyon dollardan artıq sərmayə yatırmağı planlaşdırırıq. Bu layihələr xüsusilə dövlət sektorunu əhatə edir və buraya enerji, infrastruktur və İKT sahələri daxildir. Buraya bəzi dövlət müəssisələrinin kommersiyalaşması da daxildir.

Bilirsiniz ki, biz əvvəllər həmin 150 milyon dollarlıq yaşıl zərfi müzakirə etmişik. Onu işə salmaq istərdik. Elektrik enerjisi şəbəkəsinə gəldikdə, biz şəbəkənin təkmilləşdirilməsinə təxminən 100-200 milyon avro məbləğini sərmayə kimi yatırmağı təklif edirik. Bu, böhran zamanı cavab tədbirləri və bərpa baxımından çox əhəmiyyətlidir. Həmçinin bərpa olunan enerji mənbələrinə özəl yatırımlar üçün imkanlar yaranar. Daha sonra yaşıl şəhər ideyası var. **Azərbaycan yaşıl şəhər təşəbbüsünə qoşulan ilk ölkələrdən oldu. Tullantıların idarə edilməsi layihəsi baxımından Gəncə bu çərçivə təşəbbüsünə mart ayında qoşuldu. Biz təklif edirik, o, ilk yaşıl şəhər layihəsi olsun.**

Həmçinin Aztelekom şirkəti ilə bağlı təklifimiz var. Bizim alt suveren 15–25 milyon avroluq mühüm investisiya layihəmiz var. Rayonlarda genişzolaqlı internet imkanları genişlənəcək.

Yekun olaraq, dövlət müəssisələri və dövlət sektoru. Fikrimcə, biz növbəti həftə və ay ərzində dövlət müəssisələrinin orta perspektivdə kommersiyalaşdırılmasına, özəlləşdirilməsinə kəçmək istəyirik. Bu, dövlət investisiya holdinqi vasitəsilə edilə bilər. Biz dövlət müəssisələrinin kommersiyalaşdırılması və özəlləşdirilməsinə keçidə həqiqətən kömək etmək istərdik. Biz, həmçinin Azərbaycanın yeni İnkişaf Korporasiyasının yaradılması istiqamətində çalışırıq.

* * * * *

**Sonra Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın perspektivi ətrafında fikir mübadiləsi aparılıb. Müzakirələrdə İqtisadiyyat naziri Mikayıl Cabbarov və Avropa Yenidənqurma və İnkişaf Bankının Şərqi Avropa və Qafqaz Regionu üzrə icraçı direktoru Matteo Patrone çıxış ediblər.**

# Əsas məqsədimiz qeyri-neft sənayesini inkişaf etdirmək və qeyri-neft ixracını artırmaqdır



Aprelin 24-də Abşeron rayonunun ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Sonra Prezident İlham Əliyev magistral qaz kəmərinin açılışını edib və Sumqayıt şəhər ictimaiyyətinin bir qrup nümayəndəsi ilə görüşüb.

**O, deyib:** - Bu gün Sumqayıt şəhərinin dayanıqlı qaz təchizatı işində çox əlamətdar bir gündür. Biz Sumqayıt şəhərinə yeni alternativ qaz xəttinin çəkilişini qeyd edirik. Bu vaxta qədər Sumqayıt bir xətt üzərində qazla təmin edilirdi. Əlbəttə ki, Sumqayıtda son illərdə yaradılmış sənaye müəssisələri, sənaye klasterləri əlavə həcm tələb edirdi. Bunu nəzərə alaraq yeni qaz kəmərinin tikintisi zəruri idi. Qaz kəmərinin uzunluğu 60 kilometrdir. Bu, böyük bir inşaat layihəsi olubdur. Qısa müddət ərzində bu kəmər istifadəyə verilir və bu gün artıq fəaliyyətə başlayır.

Bu, birinci növbədə əhalini təbii qazla təmin etmək işində önəmli addımdır. Sumqayıtda qazlaşdırmanın səviyyəsi 100 faizdir. Əlbəttə ki, şəhərin bir xəttin üzərində qidalanması müəyyən problemlər yarada bilərdi, qaza nəticəsində müəyyən problemlər yarana bilərdi. İndi isə bu ikinci xətt həm artan tələbatı ödəyəcək, eyni zamanda, ikinci sığorta layihə kimi sumqayıtlıları təmin edəcəkdir.

O ki qaldı, şəhərin sənaye potensialına, son illərdə Sumqayıt sənaye baxımından çox uğurla inkişaf edir. Burada bir çox önəmli layihələr icra edilibdir. Sumqayıt Texnologiyalar Parkı uzun illərdir ki, fəaliyyət göstərir. Burada 10-dan çox zavod fəaliyyət göstərir. Ondan sonra Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Yüzlərlə hektar torpağı əhatə edən bu böyük ərazidə bütün infrastruktur layihələri, təmizləmə işləri dövlət xətti ilə aparılmışdır və sonra dövlət və özəl sektor orada investisiya qoymağa başlamışlar. Hazırda Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin tikintisi davam edir.

Eyni zamanda, şüşə zavodu da inşa edilir. Biz şüşələri xaricdən idxal edirik və bu zavod işə düşəndən sonra artıq idxaldan asılılığı aradan götürəcəyik.

Sumqayıtda Azərbaycan sənayesinin flaqmanları sayılan iki nəhəng sənaye müəssisəsi inşa edilib - polimer və karbamid zavodları. Bu müəssisələr həm daxili tələbatı tam ödəyəcək, eyni zamanda, böyük ixrac imkanları yaranıb. Bu ixracın əhəmiyyəti ondadır ki, bu, qeyri-neft ixracıdır. Bizim də əsas məqsədimiz qeyri-neft sənayesini inkişaf etdirmək və qeyri-neft ixracını artırmaqdır.

## 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar qərara alıram:

*1. 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 (min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.*

**2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:**

*2.1. Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,9 milyon (beş milyon doqquz yüz min) manat ayrılsın;*

*2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;*

*2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.*

**3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.**

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 aprel 2020-ci il**

## Rusiyada kiçik və orta biznesə subsidiyaların təqdim olunması xidməti istifadəyə verilir



Federal Vergi Xidməti (FVX) may ayının 1-dən kiçik və orta biznesdə çalışan hər işçiyə bir minimal əməkhaqqı məbləğində subsidiya verilməsi üçün ayrıca bir xidməti istifadəyə verəcək. FHN-nin rəhbəri Danil Yeqorov koronavirus şəraitində kiçik və orta biznesin dəstəklənməsinə həsr olunmuş onlayn brifinqdə bildirib ki, bu ödənişlərdən vergi tutulmayacaq.
Hər işçi başına bir minimal əməkhaqqı həcmində (12 min 130 rubl və ya 276,5 manat) ödəniş mart ayı ilə müqayisədə işçilərinin ən azından 90 faizini saxlayan kiçik və orta müəssisələrə veriləcək.
Bundan başqa, FVX öz platformasında şirkətlərə əməkhaqqının ödənilməsi üçün 0 faizlə güzəştli kreditlərin verilməsi məqsədilə yeni bir xidmət artıq istifadəyə verib.

## Fitch İtaliyanın kredit reytinqini aşağı saldı




Beynəlxalq kredit reytinqi təşkilatı Fitch Ratings İtalyanın kredit reytinqini "BBB" səviyyəsindən "BBB-" səviyyəsinə endirildiyini və proqnozunun "sabit" olduğunu açıqlayıb. İtaliyanın kredit reytinqinin aşağı salınması yeni növ koronavirüs (Covid-19) pandemiyasının ölkə iqtisadiyyatı və maliyyə vəziyyəti üzərindəki təsiri əks etdirdiyi qeyd edilib. İtaliya iqtisadiyyatının bu il 8% azalacağının təxmin edildiyi açıqlamada, Covid-19 pandemiyasının bu ilin ikinci yarısında nəzarət altına alınması halında 2021-ci ildə nisbətən güclü bir iqtisadi müzakirələrin gözlənildiyi qeyd edilib.
Açıqlamada, epidemiyada ikinci bir dalğasının olması və təcrid tədbirlərinin yenidən başlaması vəziyyətində, iqtisadiyyatın bu il və gələn il daha çox zəifləyəcəyi bildirilib.

## Maliyyə vəziyyəti daha sabit olanlar “sağ qalacaq”



Neft bazarında yer alan böhran şəraitində daha sabit maliyyə vəziyyəti olan şirkətlər öz yerini qoruyacaq.
Bunu Rusiyanın Energetika naziri Aleksandr Novak deyib.
“Çox güman ki, dəyişikliklər həm şist, həm də ənənəvi neft istehsalçılarını əhatə edəcək. Böhran vəziyyətində hər zaman dəyişikliklər olur. Heç kim bunun baş verməsini gözləmirdi. Krediti çox olan müəssisələr hazırda risk altındadır, maliyyə vəziyyəti daha sabit olanlar “sağ qalacaq”, - deyə A. Novak qeyd edib. Onun sözlərinə görə, hazırda müflisləşmələrin sayını ancaq təxmin etmək olar, lakin bunlar bazarın qanunlarıdır. Bununla yanaşı, A.Novak vurğulayıb ki, Rusiyanın neft şirkətləri sabit maliyyə vəziyyətinə malikdir və ölkədə istehsal olunan neft dünya bazarında rəqabətlidir.

## Gürcüstan faiz qərarını açıqladı




Gürcüstan Milli Bankı uçot dərəcəsini 0,5 bənd azaldaraq 8,5% səviyyəsində müəyyən edib.
Bunu bankın prezidenti Koba Qvenetadze bildirib.
Onun sözlərinə görə, koronavirus pandemiyası və dünya bazarlarında neftin kəskin ucuzlaşması fonunda Gürcüstanda mart ayında illik inflyasiya 6,1% təşkil edib.
Bankın proqnozuna əsasən, müvəqqəti faktorların səbəb olduğu inflyasiya bir neçə ay ərzində yüksək olaraq qalacaq, daha sonra isə tədricən azalacaq.
Monetar Siyasət Komitəsinin növbəti iclası 2020-ci ilin iyunun 24-nə təyin olunub.

## Aİ üzv dövlətlərə kredit formasında 540 milyard avro yardım edəcək



Koronavirus böhranı çərçivəsində Avropa İttifaqı şirkət və üzv dövlətlərə kredit formasında 540 milyard avroyadək yardım edəcək.
Barəsində bir neçə həftədən bəri müzakirələr aparılan müvafiq paket İttifaqa üzv dövlətlərin maliyyə nazirlərinin videokonfransında razılaşdırılıb. Böhran Fondu adı alan yardım mexanizmi üç əsas istiqamətdə maliyyə dəstəyi göstərəcək; iş yerlərinin qorunub saxlanması, kiçik və orta sahibkaralara və eləcə də pandemiyanın ağır zərbə vurduğu İtaliya və İspaniya kimi dövlətlərə yardım. Üçüncü istiqamət üzrə vəsaitlər hələ maliyyə böhranı dövründə formalaşan Avropa Sabitlik Mexanizminin (ESM) kredit şərtləri əsasında təqdim olunacaq. Maliyyə böhranı dövründən fərqli olaraq, bu dəfə həmin mexanizm çərçivəsində vəsaitlər almaq istəyən ölkələr ölkə iqtisadiyyatında hansısa qənaət proqramları həyata keçirmək öhdəliyi daşımayacaqlar. Bu zaman əsas şərt vəsaitlərin birbaşa və ya dolayısı ilə səhiyyə sistemi üçün xərclənməsini təmin etməkdir. Ümumilikdə bu istiqamətdə 240 milyard avro həcmində kreditlər verilə bilər və müraciət edən hər bir ölkə ümumdaxili məhsulunun iki faizi həcminədək kredit alma imkanı əldə edəcək.
Avropa Komissiyasından mətbuata verilən məlumata görə, Koronavirus Böhranından sonra İqtisadiyyatın Yenidən Qurulması Fondu adlı mexanizm üzərində iş gedir. Həmin fondun vəsaitlərinin 1,5 trilyon avro olacağı ehtimal olunur. Avropa Komissiyası mayın 6-dək 2021-2027-ci illər üzrə Uzunmüddətli Maliyyə Çərçivəsi (MFR) ilə bağlı yeni təkliflərini təqdim edəcək və həmin təkliflərdə bu fond barədə daha ətraflı məlumatların yer alacağı gözlənilir.

## BP "OPEC+" ölkələrində hasilatı azaldacaq




İngiltərənin neft-qaz şirkəti BP "OPEC+" ( Neft İxrac Edən Ölkələr Təşkilatında və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azalması üzrə təşəbbüs) yeni razılaşmasında iştirak edən ölkələrdəki layihələr çərçivəsində neft hasilatını azaltmağa hazırdır.
Bu barədə şirkətin upstream-layihələr (kəşfiyyat və hasilat üzrə layihələr) üzrə maliyyə direktoru Mürrey Oçinkloss (Murray Auchincloss) bildirib.
"Bu gün Anqola, Azərbaycan, Rusiya və Yaxın Şərqdə danışıqlar aparırıq. Sizə rəqəmləri səsləndirməyəcəm, amma sualınıza cavab verərək, deyəcəyəm ki, "OPEC+" razılaşmasının işə düşməsi ilə əlaqədar ikinci rübdə istehsalın azalacağını görəcəyik. Həcmlər bu gün ən vacib şey deyil", - deyə, M. Oçinkloss qeyd edib.
Qeyd edilir ki, "OPEC+" ölkələrində iri neft şirkətləri ümumiyyətlə hökumət tərəfindən olunan hasilat azalmalarından kənar qalırdı.
Xatırladaq ki, bu ilin aprel ayında OPEC və qeyri-OPEC ölkələri nazirlərinin iclasında "OPEC+" üzrə gündəlik neft hasilatının mayın 1-dən 9,7 mln. barel, iyulun 1-dən ilin sonuna kimi 7,7 mln. barel və 2021-ci ilin yanvarından 2022-ci ilin aprelinədək isə 5,8 mln barel həcmində azaldılması qərarının icrasına yekdilliklə razılıq verilib.
Dünya neft bazarında balansın yaradılması və neftin qiymətinin sabitləşdirilməsi məqsədilə Azərbaycan da üzərinə yeni öhdəliklər götürüb. 2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barel olan Azərbaycan yeni Razılaşma çərçivəsində hasilatı həmin səviyyədən 164 min barel azaltmalı olacaq. Bu müddət ərzində (may-iyun) Azərbaycan gündəlik xam neft hasilatını 554 min barel həcmində saxlamalıdır.

## Moody’s neftin qiymətilə bağlı proqnozlarını açıqladı



Beynəlxalq kredit reytinqi təşkilatı Moody’s, neft qiymətlərinin bu il aşağı səviyyələrdə qalmağa davam edəcəyini gözləyir.
Təşkilat, bu il Brent neftin qiymətinin orta hesabla 35 dollar və Qərb Texas (WTI) neftinin qiymətinin isə orta hesabla 30 dollar olacağını gözlədiyini bildirib.
Moody’s, neft qiymətlərinin 2021-ci ildə iqtisadi inkişaf və tələbdəki artım ilə yüksələcəyini gözlədiyini, Brent neftin barel qiymətinin orta hesabla 45 dollar, WTI neftin barel qiymətinin isə orta hesabla 40 dollar olacağını təxmin edir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500